| | |
|---|---|
| "Dövlət qeydiyyatına alınmışdır" | "Təsdiq edirəm" |
| Azərbaycan Respublikasının | Azərbaycan Respublikasının |
| Ədliyyə Nazirliyi | Fövqəladə Hallar Nazirliyi |
| Qeydiyyat № 3350 | Əmr № 073 |
| 26 iyul 2007-ci il | 16 iyul 2007-ci il |
| Nazir _______________ Fikrət Məmmədov | Nazir ____________ Kəmaləddin Heydərov |

**Kiçik həcmli gəmilərin dövlət qeydiyyatı**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Hazırkı qaydalar Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli, 394 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"yə və 2006-cı il 29 dekabr tarixli, 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi haqqında Əsasnamə"yə müvafiq olaraq hazırlanmış və Azərbaycan Respublikasının ərazisində hüquqi və fiziki şəxslərə məxsus kiçik həcmli gəmilərin (bundan sonra - gəmilər) dövlət qeydiyyatına alınması qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərə məxsus gəmilərin dövlət qeydiyyatı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi (bundan sonra - Müfəttişlik) tərəfindən həyata keçirilir.

1.3. Hüquqi və fiziki şəxslər onlara məxsus gəmiləri texniki vəziyyətindən asılı olmayaraq, satın aldıqları və ya gömrük qeydiyyatından keçdiyi andan, yaxud qeydiyyat zərurətinə səbəb olan vəziyyət yarandıqdan 10 gün müddətində dövlət qeydiyyatına alınmaq üçün Müfəttişliyin müvafiq şöbəsinə ərizə ilə müraciət etməlidirlər.

1.4. Hüquqi şəxslərə məxsus gəmilər onların hüquqi ünvanı və ya dayanacaq yeri üzrə, fiziki şəxslərin mülkiyyətində olan gəmilər isə onların sahiblərinin yaşadığı ünvan və ya dayanacaq yeri üzrə dövlət qeydiyyatına alınır.

1.5. Fərdi qaydada tikilmiş gəmilərin ilkin texniki sənədləri olmadıqda onlara lazımi sənədləri vermək səlahiyyəti olan təşkilatlardan texniki sənədlərin alınması prosedurundan və ilkin texniki müayinədən keçdikdən sonra dövlət qeydiyyatına alınır.

## 2. Gəmilərin dövlət qeydiyyatı

2.1. Gəmilərin dövlət qeydiyyatı onların sahibləri tərəfindən yaşayış yeri və ya gəminin dayanacaq yeri üzrə ərizə ilə müraciət olunduqda və zəruri sənədlər qeydiyyat orqanına daxil olduğu andan 10 gün müddətində həyata keçirilir.

2.2. Gəmi sahibləri və ya onların adından qanunvericiliyə müvafiq olaraq etibarnamə əsasında çıxış edən səlahiyyətli nümayəndələri tərəfindən gəmilərin dövlət qeydiyyatına alınması üçün aşağıdakı sənədlər təqdim edilir:

- gəmi sahibi tərəfindən doldurulmuş ərizə kartı (əlavə 1);

- gəmi sahibinin şəxsiyyətini təsdiq edən sənəd;

- Azərbaycan Respublikası ərazisində yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün gəmi sahibi və ya onu əvəz edən səlahiyyətli şəxsin qanunvericilikdə nəzərdə tutulmuş qaydada şəxsiyyətini təsdiq edən sənəd;

- gəminin və mühərriklərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada əldə edilməsini təsdiq edən sənədlərin əsli və surəti (aşağıda göstərilən sənədlərdən ən azı biri təqdim olunmalıdır):

- qaimə;

- alqı-satqı və ya bağışlanma müqaviləsi;

- vərəsəlik haqqında şəhadətnamə;

- xarici dövlətlərin dövlət gəmi reyestrindən çıxarılmasını təsdiq edən sənəd;

- Müfəttişlik tərəfindən gəminin istismara yararlı olması haqqında təqdim olunmuş texniki baxış aktı (əlavə 2);

- zavodda istehsal olunan gəmilərə, əsas və ya asma mühərriklərə aid olan texniki sənədlərin əsli və surəti;

- gəminin dövlət qeydiyyatına alınması üçün müəyyən edilmiş haqqın ödənilməsini təsdiq edən sənəd;

- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquq müəyyən edən sənədlər.

2.3. Dövlət qeydiyyatına təqdim olunmuş bütün sənədlərdə aparılan qeydlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır (və ya qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş Azərbaycan Respublikasının dövlət dilinə tərcümə).

2.4. Qeydiyyat zamanı təqdim olunan rəsmi xarici sənədlər Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində və ya konsulluqlarında müəyyən olunmuş qaydada təsdiq edilməlidir.

2.5. Hüquqi şəxsə məxsus olan gəminin dövlət qeydiyyatı üçün bu Qaydaların 2.2 bəndində göstərilənlərdən əlavə aşağıdakı sənədlər təqdim olunur:

- hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən şəhadətnamənin əsli və surəti;

- qeydiyyatdan keçirilən gəminin, müəssisənin balansında olması haqqında arayış;

- gəminin istismarına görə məsul şəxsin təyinatı haqqında, müəssisə rəhbəri tərəfindən verilmiş əmrin surəti;

- dövlət qeydiyyatı üçün lazım olan sənədləri Müfəttişliyə təqdim edən şəxsə verilmiş etibarnamə.

2.6. Azərbaycan Respublikasının ərazisində yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə məxsus olan gəmilərin dövlət qeydiyyatı ümumi əsaslarla həyata keçirilir.

2.7. Qeydiyyatdan keçmiş gəmiyə gəmi bileti təqdim edildikdən sonra qeydiyyat üçün təqdim edilmiş sənədlərin əsli qaytarılır.

2.8. Qeydə alınmış gəmiyə bort nömrəsi və gəmi sahibinə gəmi bileti verilir. (əlavə 3).

2.9. Ərizə kartı Müfəttişliyin arxivində saxlanılır.

2.10. Gəminin dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş sənədlərdə müəyyən olunmuş qaydada təsdiq edilməmiş qeydlər, silinmiş sözlər və digər düzəlişlər olduğu halda sənədlər icraya qəbul edilmir.

2.11. Vərəsəlik üzrə alınmış gəmilərdən başqa, gəmilərin qeydiyyatı 16 yaşına çatmış şəxslər üçün edilə bilər. Gəmi vərəsəlik hüquqi ilə 16 yaşına çatmamış şəxsin adına qeydə götürülərkən qeyd vərəqində valideynin və ya qəyyumun soyadı, adı, atasının adı yazılır və qeyd olunur ki, valideynlərin, himayədar orqanların və qəyyumun razılığı olmadan gəminin qeydiyyatdan çıxarılması qadağandır.

2.12. Qeydiyyata götürülməmiş gəmilərin istismarı qadağandır.

## 3. Gəminin təkrar dövlət qeydiyyatı

3.1. Gəmilər aşağıdakı hallarda təkrar dövlət qeydiyyatına alınırlar:

- gəmi sahibinin yaşayış yeri və ya gəmilərin daimi dayanacaq yeri dəyişdirildikdə;

- gəminin sahibi dəyişildiyi halda;

- gəmi biletinə daxil edilmiş göstəricilər dəyişdirildikdə - gəminin konstruksiyasında dəyişikliklər olduqda, mühərriklərin sayı dəyişdikdə, həmçinin mühərrik daha güclü mühərriklə əvəz olunduqda.

3.2. Gəminin təkrar dövlət qeydiyyatı aşağıda göstərilən sənədlər təqdim olunduğu halda həyata keçirilir:

- gəmi sahibinin ərizəsi;

- təkrar dövlət qeydiyyatının aparılması zərurətini təsdiq edən sənəd;

- gəmi bileti;

- gəmi sahibinin şəxsiyyətini təsdiq edən sənəd;

- təkrar dövlət qeydiyyatına görə müəyyən olunmuş haqqın ödənilməsini təsdiq edən sənəd;

- gəminin istismara yararlı olması haqqında texniki baxış aktı.

Gəmi təkrar dövlət qeydiyyatına alındıqda gəmi sahibinə yeni gəmi bileti verilir və ya mövcud olan gəmi biletində müvafiq düzəlişlər edilir.

3.3. Gəminin mühərriki daha zəif və ya eyni gücə malik mühərriklə əvəz olunduqda gəmi təkrar dövlət qeydiyyatına alınmadan qeydiyyat reyestr kitabında və gəmi biletində müvafiq düzəlişlər edilir.

**4. Gəminin qeydiyyatının rəsmiləşdirilməsi**

4.1. Gəmi biletinin alınması faktı, gəmi mülkiyyətçisinin və ya onun səlahiyyətli nümayəndəsinin qeydiyyat reyestr kitabında imzası ilə təsdiq edilir.

4.2. Gəmi gəmi mülkiyyətçisinin adına qeydiyyata alınır.

4.3. Gəminin bir neçə mülkiyyətçisi varsa dövlət qeydiyyatı və mülkiyyət hüququ ərizə kartında göstərilmiş mülkiyyətçilərə ayrılmış pay göstərilməklə pay hüququna malik olan hüquqi və ya fiziki şəxslərin hər birinin adlarına ayrıca həyata keçirilir.

4.4. Gəmi dövlət qeydiyyatına alındıqdan sonra gəmiyə gəmi bileti verilir. Gəmi bileti gəminin Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququnu və sahibinə məxsusluğunu təsdiq edir.

4.5. Gəmi bileti gəminin qeydiyyatını təsdiq edən sənəd olmaqla qeydiyyat nömrəsinə malikdir. Gəmi biletləri müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin sifarişi ilə hazırlanır.

4.6. Gəmi bileti gəmi sahibinin sərəncamında olur. Gəmidə müəyyən olunmuş qaydada təsdiq edilmiş gəmi biletinin surəti saxlanılır.

4.7. Gəmi sahibinin mülkiyyətində bir neçə gəmi varsa onların dövlət qeydiyyatı zamanı hər bir gəmi üçün qeydiyyat sənədləri ayrılıqda tərtib olunaraq, gəmi bileti verilir.

4.8. Gəmi biletində gəminin təsnifatı və məxsusluğu haqqında qeydlər aparılır.

4.9. Gəmi biletinə aşağıda göstərilən məlumatlar daxil edilir:

- gəminin adı və tipi;

- yaxtalar üçün dərəcə nişanı;

- təyinatı;

- gəminin ölçüləri: uzunluğu, eni, bort hündürlüyü, suya oturumu, tutumu;

- gövdənin materialı;

- sərnişin götürmə qabiliyyəti;

- yük götürmə qabiliyyəti;

- tikildiyi il və yer;

- mühərriklərin adı, tipi, sayı, idarə olunması, zavod nömrəsi, gücü;

- ehtiyat mühərriklərin sayı, adı, gücü;

- xilasedici avadanlıqlarla təminatı;

- üzmə rayonu;

- dayanacaq yeri;

- gəminin bort nömrəsi, seriyası, reyestr nömrəsi;

- gəmi sahibi və onun ünvanı.

4.10. Gəmi bileti 5 (beş) il müddətinə verilir.

4.11. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq gəmi bileti itdikdə və ya yararsız hala düşdükdə mülkiyyətçinin və ya onun səlahiyyətli nümayəndəsinin ərizəsi əsasında gəmi yenidən texniki baxışdan keçirilir və gəmiyə gəmi biletinin dublikatı verilir. Gəmi biletində "DUBLİKAT" möhürü vurularaq, qeydiyyat kitabında müvafiq qeydlər aparılır.

## 5. Gəminin bort nömrəsinin yazılması

5.1. Bu Qaydaların 5.3. bəndində göstərilən hallar istisna olmaqla, gəminin bort nömrəsi dörd rəqəmdən, seriyası isə Azərbaycan əlifbasının üç hərfindən ibarət olur.

5.2. Fiziki şəxslərə məxsus gəmilərdə seriya nömrədən əvvəl, hüquqi şəxslərə məxsus gəmilərdə isə seriya nömrədən sonra yazılır.

5.3. Xarici vətəndaşlara məxsus gəmilərdə seriya iki hərfdən ibarət olmaqla nömrə yazılışı 5.2.-ci bənddə göstərilən qaydada aparılır.

5.4. Bort nömrəsi yuyulmayan boya ilə gəminin hər iki bortuna gövdə uzunluğunun burun hissəsindən 1/4 aralıq məsafədə yazılır. Hərflərin və rəqəmlərin hündürlüyü 150 mm, eni 100 mm, xəttin qalınlığı isə 15-20 mm təşkil etməlidir.

5.5. Gəminin konstruktiv xüsusiyyətlərində göstərilən tələblərin yerinə yetirilməsi mümkün olmadıqda, nömrə Müfəttişliyin müəyyən etdiyi yerdə yazılır.

## 6. Gəminin adı

6.1. Gəmi sahibinin təqdim etdiyi ərizə-kartda göstərdiyi ad gəmiyə verilir.

6.2. Gəminin adı hər iki bortunda, gəminin burun hissəsində yazılır.

## 7. Gəminin dövlət qeydiyyat reyestr kitabı

7.1. Gəminin dövlət qeydiyyat reyestr kitabına (əlavə 4) aşağıda göstərilən əsas məlumatlar daxil edilir:

- qeydiyyatın sıra nömrəsi, gəminin qeydiyyat nömrəsi və onun qeydiyyat tarixi;

- gəminin qeydiyyatda olduğu yer;

- gəminin adı (gəmi sahibinin ərizəsində qeyd olunan gəminin adı) və gəminin çağırış siqnalı;

- gəminin növü və təyinatı;

- gəmiqayırma tərsanəsinin adı, gəminin istehsal olunduğu yer və il;

- gəminin zavod nömrəsi, gövdənin materialı, onun əsas ölçüləri, tutumu, tam yükgötürmə qabiliyyəti, sərnişin götürmə qabiliyyəti, üzmə rayonu;

- əsas və asma mühərriklərin zavod nömrəsi və gücü;

- mülkiyyətçinin adı, vətəndaşlığı, ünvanı, hüquqi şəxs üçün isə dövlət qeydiyyatı barədə məlumatlar (gəminin bir neçə mülkiyyətçisi olduqda ümumi mülkiyyətdə pay bölgüsü göstərilməklə);

- gəmi sahibinin mülkiyyət hüququnu təsdiq edən sənəd;

- gəminin dövlət qeydiyyatını aparan vəzifəli şəxsin və gəmi sahibinin imzası;

- gəminin qeydiyyatdan çıxma səbəbi və tarixi.

## 8. Gəminin dövlət qeydiyyatından imtina halları

8.1. Gəminin dövlət qeydiyyatından aşağıdakı hallarda imtina edilir:

- səlahiyyəti olmayan şəxs tərəfindən qeydiyyata alınmaq üçün müraciət olunduqda;

- gəminin əvvəlki reyestrindən çıxarılması ilə bağlı tələblərə riayət olunmadıqda;

- dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda.

8.2. Gəmi dövlət qeydiyyatına götürülmədikdə imtina hallarının konkret səbəbləri Müfəttişliyin rəhbərliyi tərəfindən gəmi sahibinə yazılı şəkildə təqdim edilir.

8.3. Gəminin dövlət qeydiyyatı qanunvericiliyin və bu Qaydaların tələbləri pozularaq həyata keçirildikdə, həmçinin imtina üçün əsas olan hallar gələcəkdə müəyyən edildikdə dövlət qeydiyyatı etibarsız hesab olunur.

Bu halda gəmi bileti dövlət qeydiyyatı orqanına təhvil verilərək, üzərində "qeydiyyat etibarsızdır" qeydi aparılır. Bu cür qeydlər dövlət qeydiyyat reyestr kitabında və qeydiyyatdan çıxarılmış gəmilər üçün arxivdə saxlanılan ərizə kartında da aparılır.

8.4. Dövlət qeydiyyatından keçməyən gəminin istismara buraxılması qadağandır.

8.5. Müfəttişlik tərəfindən gəmiyə verilmiş ad və bort nömrəsi gəminin gövdəsində yazılmadan, gəminin istismara buraxılmasına icazə verilmir.

8.6. Gəmi biletinə daxil edilmiş məlumatlardan əlavə gəmidə hər hansı bir dəyişiklik edildiyi halda, gəmi mülkiyyətçisi Müfəttişliyə bu cür dəyişikliyin olduğu gündən etibarən 10 gün ərzində məlumat verməlidir.

8.7. Gəmi texniki cəhətdən tamamilə işlənib sıradan çıxdıqda, yaxud məhv olduqda texniki baxış zamanı bu hallar aktla təsdiq edildikdə gəminin silinməsi üçün Müfəttişlik tərəfindən qərar çıxarılır və dövlət reyestr kitabında müvafiq qeydlər edilir. Belə hallarda gəmi bileti alınır və Müfəttişliyin arxivində saxlanılır.

## 9. Yekun müddəalar

Bu Qaydalar dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir.

Kiçik həcmli gəmilərin
dövlət qeydiyyatı Qaydalarına
1 nömrəli əlavə

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin
Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin**

Rəisi ____________________________________________

Vətəndaş__________________________________________
(ünvanı, anadan olduğu tarix və yer)

__________________________________________________
(iş yeri, vətəndaşlığı, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verilmə tarixi)

__________________________________________ tərəfindən
(soyadı, adı, atasının adı, etibarnamə nömrəsi)

# Ərizə kartı

Mənə məxsus olan __________________________________
(gəminin adı)

______________________________ gəmini qeydiyyata almağınızı xahiş edirəm.
(payın ümumi mülkiyyətdə olan miqdarı, %-lə)

Gəminin tipi __________________ təyinatı __________________

Tikildiyi il və yer ________________________________

__________________________________________________

Zavod №-si __________________ Gövdənin materialı __________________

Uzunluğu __________ m, eni __________ m, bortun hündürlüyü __________ m

Suüstü bortun hündürlüyü __________ m, tutumu __________ ton.

Yükgötürmə qabiliyyəti __________ ton, sərnişin götürmə qabiliyyəti __________ nəfər.

Üzmə rayonu və üzmə şərti ______________________________

Əsas mühərrik __________________ ehtiyat mühərrik __________________

Sayı ______________________________________________

Mühərriklərin zavod nömrəsi ______________________________

Mühərriklərin gücü ______________________________ a/g, (kVt)

Yelkənlərin sayı __________________, yelkənlərin ümumi sahəsi __________________ $m^2$

Gəminin əvvəlki qeydiyyat №-si ______________________________

Gəminin əvvəlki qeydiyyat yeri ______________________________
(gəmini əvvəlki qeydiyyata alan orqanının adı və onun yerləşdiyi yer)

Gəminin daimi dayanacaq yeri ______________________________

__________________________________________________
(bazanın adı və ünvanı)

Vergi ödəyən şəxsin fərdi nömrəsi (VÖEN) ______________________________

Mən qeydiyyat kartına və gəmi kitabçasına daxil edilmiş məlumatların istənilən şəkildə dəyişdirilməsi haqqında, sahibi olduğum gəmini qeydiyyatdan keçirən KHGDM-ndə aparılan dəyişikliklərdən xəbər tutduğum andan 10 gün ərzində məlumat verməyə borcluyam.

"_____" __________________ 200____-ci il.

______________________________
(gəmi sahibinin soyadı və imzası)

Kiçik həcmli gəmilərin
dövlət qeydiyyatı Qaydalarına
2 nömrəli əlavə

## Kiçik həcmli gəmilərin texniki baxışdan keçirilməsinə dair

# AKT

__________________________ "____" _________________ 20___-ci ildə
(tərtib olunan yer)

________________________________________________________________________

________________________________________________________________________
(FHN-yi Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin əməkdaşları)

tərəfindən tərtib olunmuşdur.

Gəminin sahibi ___________________________________________________________
(Soyadı, adı, atasının adı və ya müəssisə və təşkilatın adları, ünvanı, telefonu)

________________________________________________________________________

____________________tipdə gəmi texniki baxışdan keçirilməsi üçün təqdim olunmuşdur.

Gəminin inşa olunduğu tarix ________İnşa olunduğu yer_________Zavod №-si______

Gövdənin materialı_________uzunluğu_____________m, eni ___________________m.

Bortun hündürlüyü_________m, Suüstü bortun hündürlüyü ___________________m.

Yükgötürmə qabiliyyəti______ton, sərnişin götürmə qabiliyyəti _______________nəfər.

Yelkənlərin tutduğu sahə ______kv.m. Tikilmə mənsubiyyəti ____________________
(zavod və ya fərdi)

Mühərrikin markası __________________________ Sayı ______________________

Gücü ________________________________________Zavod nömrəsi______________

### Texniki baxış nəticəsində müəyyən olunmuşdur:

1. Gəminin əsas ölçüləri ______________________________________________
(təyin edilmiş ölçülər)
2. Gəminin tutumu _____________ton
3. Suya oturumu ____________m.
4. Gövdənin vəziyyəti___________________________________________________
(vəziyyətin düzgün şəkildə qiymətləndirilməsi)

________________________________________________________________________

5. Sükan qurğusu ______________________________________________________
(vəziyyətin düzgün şəkildə qiymətləndirilməsi)
6. Lövbər və yanalma qurğuları __________________________________________
(mövcud vəziyyəti)
7. Xilasedici vasitələr ____________________________________________________
( adı, sayı və vəziyyəti)

________________________________________________________________________

**8. Siqnal və işıq qurğuları** ____________________________

(adı və vəziyyəti)

**9. Təchizat avadanlıqlarla komplektləşdirmə** ____________________________

____________________________

( tələblərə uyğunluq)

**10. Yükgötürmə qabiliyyəti** ____________________________**ton**

**11. Sərnişin götürmə qabiliyyəti** ____________________________**nəfər.**

**12. Davamlılıq, batmamaq və üzmək qabiliyyəti** ____________________________

____________________________

(vəziyyətin düzgün şəkildə qiymətləndirilməsi)

**13. Üzmə ehtiyatı** ____________________________

(təmin olunmuşdur və yaxud olunmamışdır)

**14. Süstü bortun hündürlüyü** ____________________________**m.**

**15. Yanğın əleyhinə sistem** ____________________________

(növü və yararlılıq müddəti)

**16. Mexaniki qurğular**____________________________

(vəziyyətin düzgün şəkildə qiymətləndirilməsi)

**17. Mühərrikin maksimal gücü**____________________________

( müəyyən olunmuş)

**18. Yelkənlər və takelajların vəziyyəti** ____________________________

(yararlılığı)

**19. Elektrik avadanlığı** ____________________________

(vəziyyəti)

**20. Radio/rabitə və r/lokasiya avadanlıqları** ____________________________

____________________________

(növü, markası , vəziyyəti)

**Gəmi üzrə texniki baxışın ümumi nəticəsi** ____________________________

(yararlı, qismən yararlı, istismara yararsız)

**Müəyyən edilmiş rayon və üzmə şərtləri:**

**Dalğanın hündürlüyü** ________________**m.**

**Üzmə rayonu** ________________**mil.**

**Mühərrikin gücü** ________________**kvt.**

**Yük götürmə qabiliyyəti** ________________**t.**

**Müfəttişlər:** ________________

(imza)

**M.Y.**

________________

(imza)

**Gəminin sahibinin imzası** ____________________________

Kiçik həcmli gəmilərin
dövlət qeydiyyatı Qaydalarına
3 nömrəli əlavə

**AZƏRBAYCAN RESPUBLİKASI
FÖVQƏLADƏ HALLAR
NAZİRLİYİNİN**

**KİÇİK HƏCMLİ GƏMİLƏR ÜZRƏ
DÖVLƏT MÜFƏTTİŞLİYİ**

# GƏMİ BİLETİ

**№ 00000**

**BAKI**

**BÜTÜN KİÇİK HƏCMLİ GƏMİLƏR AZƏRBAYCAN RESPUBLİKASİNİN DÖVLƏT BAYRAĞI ALTINDA ÜZÜR**

**Gəminin adı** ______________________________

**Gəminin tipi** ______________________________

**Təyinatı**______________________________

**Yaxtanın dərəcə nişanı** ______________________________

**Gəminin ölçüləri:**

**Uzunluğu** ____________**Eni** ____________
**Bort hündürlüyü**__________ **Suya oturumu** __________
**Tutumu** ______________________________
**Gövdənin materialı** ______________________________
**Sərnişin götürmə qabiliyyəti** ______________________________
**Yükgötürmə qabiliyyəti** ______________________________
**Tikildiyi il və yer** ______________________________

**Əsas Mühərrik**

**Adı** ______________________________
**Sayı** ______________________________
**Tipi** ______________________________
(asma və ya bünövrəli)
**İdarə olunması** ______________________________
(yerli və uzaqdan idarə)
**Zavod №** ________
**Gücü** __________
**Ehtiyat mühərrik** __________

**Xilasedici avadanlıq ilə təminatı**______________________________
______________________________
______________________________

**Üzmə rayonu** ______________________________

**İcazə verilir** ______________________________
(küləyin sürəti və dalğanın hündürlüyü)

**Dayanacaq yeri** ______________________________

**Gəminin bort №** ____________**Seriyası**____________

**Reyestr №** ______________________________

**Gəminin sahibi** ______________________________
______________________________

**Ünvanı** ______________________________

**Gəmi sahibinin imzası** ______________________________

**Verilmə tarixi** "_____" ______________**200 -ci il**

**Etibarlıdır :** "_____"______________**20 -ci ilədək**

**M.Y.** **Rəis** ____________

# XÜSUSİ QEYDLƏR
# VƏ ƏLAVƏ MƏLUMATLAR

Kiçik həcmli gəmilərin
dövlət qeydiyyatı Qaydalarına
4 nömrəli əlavə

# AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN

## KİÇİK HƏCMLİ GƏMİLƏR ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

## KİÇİK HƏCMLİ GƏMİLƏRİN QEYDİYYATI ÜZRƏ

# QEYDİYYAT REYESTR KİTABI

## KİCİK HƏCMLİ GƏMİLƏRİN QEYDİYYATI

| SIRA NÖMRƏSİ | GƏMİNİN ADI | QEYDİYYAT NÖMRƏSİ | QEYDİYYAT TARİXİ | QEYDİYYATDA OLDUĞU YER | GƏMİNİN NÖVÜ VƏ TƏYİNATI | GƏMİ QAYIRMA TƏRSANƏSİNİN ADI, İSTEHSAL OLDUĞU YER VƏ İL | ZAVOD №-Sİ | GÖVDƏNİN MATERİALI | YÜK GÖTÜRMƏ QABİLİYYƏTİ | SƏRNİŞİN GÖTÜRMƏ QABİLİYYƏTİ | TUTUMU m3 | ÜZMƏ RAYONU |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| | | | | | | | | | | | | |
| 2 sm | 5 sm | 3 sm | 3 sm | 6 sm | 5 sm | 5 sm | 3 sm | 4 sm | 2 sm | 2 sm | 2 sm | 2 sm |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

## KİCİK HƏCMLİ GƏMİLƏRİN QEYDİYYATI

| GƏMİNİN ƏSAS ÖLÇÜLƏRİ | | | | MÜHƏRRİK | | | | MÜLKİYYƏTÇİ (pay bölgüsü göstərilməklə) | | MÜLKİYYƏT HÜQUQUNU TƏSDİQ EDƏN SƏNƏD | QEYDİYYATI APARAN ŞƏXSİN İMZASI | MÜLKİYYƏTÇİNİN |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| UZUNLUĞU | ENİ | BORT HÜNDÜRLÜYÜ | SUÜSTÜ BORTUN HÜNDÜRLÜYÜ | Sayı | NÖVÜ | №-si | GÜCÜ At/g | ADI | ÜNVANI | | | |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | |
| | | | | | | | | | | | | |
| 2 sm | 2 sm | 2 sm | 2 sm | 2 sm | 4 sm | 3 sm | 2 sm | 8 sm | 7 sm | 4 sm | 2 sm | 2 |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |